# "Ulduz" jurnalı ilə "525-ci qəzet"in birgə layihəsi

# 9-LUQ

**1. Müharibə – Ədəbyyat – Müharibə ədəbiyyatı. Bu üçbucağın "tərəfləri" öz aralarında necə yola getməlidir?**
**2. Böyük Vətən müharibəsi və Qarabağ savaşının ədəbi fikirdə inikası: oxşar və fərqli cəhətlər...**
**3. Sözün bitdiyi yer haradadır?**



**İlqar FƏHMİ (AYB-nin katibi)**

– Məncə, ümumilikdə ədəbiyyatın hər iki tərəfi müharibədi… Nədənsə Sabirin Xaqanidən tərcümə etdiyi beyt yadıma düşdü:

Durmuşam pişü-pəsü-tənədə Sabir, necə kim,
O əliflər ki pəsü-pişü Əteynadə durar….

Tənə sözünün əvvəlinə və sonuna əlif hərfi qoyanda əteyna sözü alınır ki, mənası tənələr deməkdi. Sabir demək istəyir ki, tənənin əvvəlində və sonunda əlif hərfi kimi durmuşam… O baxımdan, müharibə də ədəbiyyatın əvvəlində və sonunda duran məfhumdur, çünki davası olmayan mətn ədəbiyyat ola bilməz. Bu dava saflıq, təmizlik, mənəvi yüksəliş davası da ola bilər, ictimai mübarizə də, xeyir-şər davası da, fərqi yoxdu... Ədəbiyyatda konflikt dediyimiz məfhum, əslində, elə həmin müharibə, davadır… Sadəcə, söz davasıdır. Bu baxımdan, dediyiniz üçbucaq olmayan yerdə və yaxud onun bucaqları yola getməyən yerdə ədəbiyyat da yoxdur…

– Böyük Vətən müharibəsinin ədəbiyyatda inikasında biz çoxşaxəli işıqlandırmanı görürdük. Orda məğlubiyyət də var, xəyanət də, geri çəkilmə də, müdafiə də, itkilər də, hücum da, qələbə də… Amma son aylara qədər bizim Qarabağ müharibəsiylə bağlı ədəbiyyatda bu dediklərimin bir hissəsi çatmırdı… birtərəfli idi. Lakin bundan sonra yaradılacaq sənət nümunələri, ədəbi əsərlər, məncə, artıq tam olaraq hər tərəfə inkişaf edəcək, mövzu hərtərəfli işıqlandırılacaq… məncə, məhz bu qələbədən sonra biz Azərbaycanda sözün həqiqi mənasında müharibə ədəbiyyatını görə biləcəyik...

– Sözün bitdiyi yer yoxdur. Bir sözün bitdiyi yerdə başqa bir söz başlayır. Və bu silsilə Qiyamətə qədər davam edir. Hərçənd Qiyamət də, əslində, sözün bitdiyi yer yox, həqiqət sözünün başlandığı yerdir... Çünki orda yalan mümkünsüzdür…

## Elçin MİRZƏBƏYLİ (şair)



– Nə müharibənin, nə ədəbiyyatın, nə də müharibə ədəbiyyatının bir üzü, bir siması yoxdur ki, onların yola gedib-getmədiyi barədə konkret fikir söyləmək mümkün olsun. Ədəbiyyatın rəng və çalarlarını görmək, hiss etmək mümkündür. Müharibəninkini isə yox. Müharibənin rəng və çalarlarının əhəmiyyətli hissəsi gizli qalır. Onların sayı iştirakçıların sayı qədərdir. Müharibənin rəng və çalarları, qoxusu qaliblərin, məğlubların, qazananların, itirənlərin baxış sayı qədər və bəlkə də, çoxdur. Bu baxımdan, mənim üçün "müharibə ədəbiyyatı" deyilən bir anlayış yoxdur. Mən müharibəyə əsgər, ədəbiyyata isə şair kimi baxıram. Söhbət vətən və torpaqdırsa, bayraqdırsa, millətimin və dövlətimin marağıdırsa, bütün humanizm hisslərini qatlayıb qoyuram döş cibimə, qarşımda olanı düşmən, yanımda olanı dost gözündə görürəm. Sentimental baxış bucağının, mərhəmət hisslərinin üzərindən çalın-çarpaz xətt çəkirəm. Əsgərimin, dövlətimin qalib gəlməsi, millətimin birliyinin qorunması üçün döyüşçü ruhuyla hərəkət edir, məni ani də olsa, duyğulandıra biləcək heç bir hissi yaxına buraxmıram. Yazdıqlarıma da sonuna qədər savaşmaq və qələbə qazanmaq üçün emosional təsir vasitəsi kimi yanaşıram. Şüurlu olaraq, məqsədyönlü şəkildə! Əlisilahlı düşmənə qarşı dünyanın ən qəddar, ən amansız adamına çevrilə bilərəm. Ədəbiyyatdan fərqli olaraq, müharibədə zərif hisslərə yer yoxdur. Bu baxımdan, müharibə dövrünün ədəbiyyatı mənim üçün dövlətimin və millətimin qalib gəlməsinə xidmət edən emosional təsir vasitəsidir. Ola bilsin, bu yanaşmadan doğan ədəbiyyatı kimlərsə "böyük ədəbiyyat nümunəsi" hesab etməsinlər. Amma belə yanaşmanın da iştirakı ilə əldə olunan qələbə daha böyük ədəbiyyat nümunəsidir! Vətənin sərhədlərində dalğalanan Azərbaycan bayrağından yüksəkdə heç bir əsər yoxdur, ola da bilməz.

Bu "üçbücaq"da mən dördüncü "bucağam"...

– İkinci dünya müharibəsi ilə Qarabağ savaşı arasındakı oxşar cəhətlər hər ikisinin ultramillətçilik, faşizm ideologiyası üzərində qurulan qəsbkarlıq siyasətinə qarşı mübarizəsi ilə bağlı olmasındadır. Fərqli cəhətlər isə çoxdur. Məsələn, SSRİ bu müharibədə işğala məruz qalan dövlət olsa da, yaranışı qəsbkarlıq üzərində qurulan bir imperiya idi. SSRİ-nin ideoloji platformasının əsas məqsədi xalqları assimilyasiya etməklə mədəniyyətlərin süni qarışığından "sovet mədəniyyəti" və "sovet adamı" formalaşdırmaq idi. Əslində, "Sovet adamı" ideyasına Hitler ariizminin-faşizmin təmiz qanlı ali irq, ali insan, "super insan" ideyasına qohum bir ideya kimi də yanaşmaq mümkündür. Amma "sovet adamı" ideyasının faşizmin "super ali irq-super insan" ideyasından daha humanist olduğunu qeyd etməyi də vacib sayıram. Çünki sovet ideologiyası qarşısına faşizm kimi başqalarını tamamilə məhv etmək, Yer üzündən silmək kimi bir hədəf qoymamışdı... Doğrusu, bu barədə uzun-uzadı danışmaq istəmirəm. Çox geniş və əhatəli yanaşma tələb edən bir mövzudur.

– Bu günün baxış bucağından yanaşanda, heç yerdə. Söz heç vaxt və heç bir şərtlər daxilində bitmir. Biz konkret halda erməni vəhşiliyinin bu və digər nümunəsinə "sözün bitdiyi yer" kimi yanaşırıq. Amma sonra bəlli olur ki, bundan daha amansızına qadirdirlər. Sevgi də, nifrət də, bütövlükdə insana xas olan nə varsa, nəhayətsizdir. "Bitdi" deyirsən, yenisi yaranır. Bu səbəbdən də bəşəriyyət mövcud olduqca nə sevgi, nə nifrət, nə qəddarlıq, nə də mərhəmət bitəcək. Müharibələr də həmçinin. Forma dəyişəcək, amma mahiyyət yox.

**Cavid ZEYNALLI (nasir)**



– Əvvəlcədən qəti bir söz demək çətindir. Bunu ədəbiyyat tarixi göstərir. Əgər söhbət Azərbaycan ədəbiyyatının tarixindən gedərsə, əlbəttə, sonsuz sicilləmələrin arasında həqiqi ədəbi mətnlər də yarandı. Əsl ədəbiyyat həmişə az yaranır və dediyim həmin sonsuz sicilləmə müəlliflərini hörmətlə xatırlamalıyıq ki, bizə yaxşını seçmək imkanı verdilər. Məsələn, İsa Hüseynovun povestləri. İsa İsmayılzadənin "Güllələr demədi" şeiri. Yaxud Əhməd Cəmilin "Can nənə, bir nağıl de", Süleyman Rüstəmin "Ana və poçtalyon" şeirləri. Bunlar Böyük Vətən müharibəsinin bizə ədəbi "bəxşiş"ləridir. Birinci Qarabağ savaşı haqqında yazılan yüzlərlə ədəbi mətnlərdən biz hansıları haqqında danışırıq? Daha doğrusu, mənim yaddaşımda qalanlar hansılardır? İlham Qəhrəmanın "Şəhidlər", Qulu Ağsəsin "Müharibə əlili" şeirləri, Elçin Hüseynbəylinin, Şərif Ağayarın hekayələri. Əlbəttə, yaddaşımı qurdalasam, siyahını böyüdə bilərəm.



– Hansı dövrdə, hansı şəraitdə olmasından asılı olmayaraq, müharibə elə müharibədir. Məhv olmuş insan talelərinin, yarıda qırılmış insan ömürlərinin hansı oxşar, fərqli tərəfləri ola bilər? Müharibənin ədəbi fikirdəki inikası elə insanın taleyinə işıq tutmasıdır. Faciəni, dərdi sözə çevirməsidir. Dünyanın hər yerində belədir. Andre Moruanın "Əsirin qayıtması" adlı bir hekayəsi var. Məşhur deyil, amma mənim üçün dünyanın ən gözəl müharibə mövzulu hekayələrindən biridir. Süjeti danışmıram, amma eyni hadisə hər yerdə baş verə bilərdi: Fransanın ən ucqar əyalətində də, bizim Ağdamda, Füzulidə də. Ya da Svetlana Alekseyeviçin qadın qəhrəmanlarının taleyini Qarabağın qadın döyüşçüləri yaşamayıbmı, yaşayıb. Bəs Alberto Moravianın "Çoçara" romanındakı insan müsibətlərini? Ona görə də ədəbi müstəvidə oxşar və fərqli cəhətlər axtarmağı doğru hesab etmirəm.

– Öz başına gələn müsibəti yaza bilməmək...